

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (21.263)

6 iyun 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də İndoneziya Respublikasının Energetika və Mineral Ehtiyatlar naziri Sudirman Saidin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə İndoneziyanın Energetika və Mineral Ehtiyatlar naziri Sudirman Saidin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin iqtisadi, enerji, neft-qaz və digər sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirilib, ikitərəfli əlaqələrin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin rolu xüsusi qeyd olunub.

* * *

İyunun 5-də Bakıda Azərbaycan Boks Federasiyasının yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Qafqaz Baku Sport Hotel"in açılışında da iştirak ediblər.

## Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu

*Dünən Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında bu mövzuda tədbir keçirilib.*

Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq bildirib ki, Azərbaycanın taleyinin həll olunduğu ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması ölkəmizin tarixində dönüş nöqtəsi, qurtuluş anı olub. 1991-ci ildə dövlət müstəqilliyinin rəsmən elan edilməsinə baxmayaraq, ermənilərin hərbi təcavüzünə məruz qalan ölkəmizin daxilində vətəndaş müharibəsinə zəmin yaranması, müxtəlif bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığını sual altına qoyurdu ... yillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması ilə nəticələnə bilərdi. Müstəqilliyimizin ilk illərində ölkəmizə rəhbərlik etmiş naşı siyasətçilərin səriştəsiz idarəçiliyi nəticəsində Azərbaycan addım-addım məhvə doğru sürüklənirdi.

Qeyd olunub ki, ölkədəki bütün infrastrukturun dağıldığı, hərbi və iqtisadi vəziyyətin ağırlaşdığı bir dövrdə xalqımız üzünü dünya şöhrətli siyasətçi, xalqımızın böyük oğlu Heydər Əliyevə tutub onu Bakıya, xilaskarlıq missiyasını həyata keçirməyə çağırdı. Xalqın çağırışına, bir zamanlar öz əli ilə qurub-yaratdığı respublikanın ağır vəziyyətinə biganə qala bilməyən ulu öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və Azərbaycan müstəqilliyinin zəfər yürüşünün tarixlərə şahid olacaq salnaməsini yazmağa başladı. Dahi şəxsiyyətin 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışı ən yeni tariximizin səhifələrinə Milli Qurtuluş Günü kimi yazıldı. Məhz həmin dövrdən başlayaraq Azərbaycan Heydər Əliyev yolu ilə gedərək inkişaf edir, yeni-yeni uğurlara imza atır.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədov, təşkilatın Qadınlar Şurasının sədri Könül İsmayılova çıxış edərək bildiriblər ki, Azərbaycan xalqının qurtuluşa gedən yolu Naxçıvandan başlayıb. Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövr müstəqillik tariximizin ən zəngin və dəyərli səhifələridir. Belə ki, həmin dövrdə dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi və digər tarixi qərarların qəbul olunması milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb.

Vurğulanıb ki, ümummilli liderimizin misilsiz xidmətləri sayəsində milli dövlətçilik ənənələri üzərində gündən-günə çiçəklənən Azərbaycan bu gün hərtərəfli inkişaf yolundadır. Vətənimizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası isə bu gün özünün intibah dövrünü yaşayır. Ən yaxın tariximizin ağır illərindən şərəflə çıxmış muxtar respublikamız indi sosial-iqtisadi uğurları, abad yaşayış məntəqələri ilə bura yolu düşənlərin marağına səbəb olur. Bütün bunlar isə bu qədim diyarda Heydər Əliyev ideyalarının layiqincə davam etdirilməsinin nəticəsidir.

## "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans

*İyunun 5-də Naxçıvan Dövlət Universitetində "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.*



Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkil etdiyi konfransda pedaqoji tədqiqatlar sahəsində regionda tanınmış elm xadimləri, ali və orta məktəblərin müəllimləri iştirak ediblər.

Konfransın plenar iclasında Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev Azərbaycanda aparılan təhsil islahatlarının uğurlarından, muxtar respublikada təhsilin inkişaf səviyyəsindən danışıb.

"Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Azərbaycan təhsilinin böyük hamisi, ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan təhsilini himayə etməsi, təhsilin gələcək inkişaf yollarını müəyyənləşdirməsidir. Heydər Əliyev şəxsiyyəti olmasaydı, Azərbaycan təhsili də bugünkü səviyyəyə yüksələ bilməzdi", – deyən nazir bildirib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr, bütövlükdə müasir təhsil siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Nazir bu sahəyə göstərilən dövlət qayğısından bəhs edərək vurğulayıb ki, Azərbaycan Respublikasının bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ölkə Prezidentinin təhsil sahəsində müəyyənləşdirdiyi vəzifələr uğurla həyata keçirilməkdədir. Bu gün muxtar respublikanın tam orta məktəblərində 600-dən çox elektron lövhə, 3700 kompüter şagirdlərin istifadəsinə verilib. Təhsil naziri çıxışında bu cür elmi konfransların yüksək əhəmiyyət kəsb etdiyini bildirib.

"Müasir dövrdə şəxsiyyətin formalaşmasında məktəbdənkənar təlim və tərbiyənin rolu" mövzusundakı məruzəsində Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanov elm və təhsilin qarşılıqlı əlaqələrindən və paralel inkişaf istiqamətlərindən, regionda kadr hazırlığı prosesində ali təhsil müəssisələrinin müstəsna rolundan danışıb.

Firudin Qurbanov Azərbaycan elminin, təhsilinin dinamik inkişafının, elmi kadrların hazırlanmasının, elmi potensialın gücləndirilməsinin, elmi-texniki nailiyyətlərin əldə olunmasının vacib məsələlərdən olduğunu bildirib. Dövlət başçısının elm və təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan danışan Azərbaycan Respublikası Təhsil nazirinin müavini bu uğurlu siyasətin Azərbaycan elminə dəyərli töhfələr verdiyini və ölkəmizin beynəlxalq aləmdə aparıcı dövlətlər sırasına yüksəlməsinə əsaslı zəmin yaratdığını söyləyib.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi" mövzusundakı məruzəsində rəhbərlik etdiyi ali təhsil ocağında elektron təhsil sahəsində görülən işlərdən danışıb. Bildirib ki, muxtar respublika rəhbərinin qayğısı ilə bu ali təhsil ocağı ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində quraşdırılan server avadanlıqları, elektron mühafizə və müşahidə sistemləri, Media mərkəzində Universitet televiziyası və "Nuhçıxan" radiosunun verilişlərinin Naxçıvan şəhərində rəqəmsal formatda yayımlanması, video və slayd şəklində mühazirələrin hazırlanması barədə danışan rektor universitetdə sənəd dövriyyəsi prosesinin elektron üsulla aparıldığını da nəzərə çatdırıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Şəxsiyyətyönümlü kurikulumların idrak mahiyyəti" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, təhsil sahəsində kurikulum islahatının həyata keçirildiyi bir dövrdə müəllimlərin qarşısında duran əsas vəzifə milli-mənəvi və ümumbəşəri dəyərlərə malik, geniş dünyagörüşlü, təşəbbüskar və yenilikləri qiymətləndirməyi bacaran şəxsiyyət formalaşdırmaqdır. Natiq bildirib ki, şagirdlərin şəxsiyyət kimi inkişafında təfəkkürün formalaşdırılması çox mühüm amildir. Bu mənada şəxsiyyətin formalaşmasında yaradıcı, məntiqi və tənqidi təfəkkürün inkişafı xüsusi rol oynayır.

Plenar iclasda Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzovun "Müasir məktəb, sosial çağırışlar və müəllimlik missiyası", Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ənvər Abbasovun "12 illik təhsilin xarakterik xüsusiyyətləri", Türkiyə Rəhbərlik və Elmi-Tədqiqat Mərkəzinin əməkdaşı Mehmet Önəmlinin "Uşaqlarda kəkələmə" mövzularında məruzələri dinlənilib.

Plenar iclasda Naxçıvan Dövlət Universitetinin inkişaf yolunu əks etdirən slaydlar nümayiş olunub.

Elmi konfrans öz işini 7 bölmə iclasında davam etdirib. Bölmə iclaslarında 160-dan çox alim və mütəxəssisin, tanınmış ziyalıların məruzələri dinlənilib.

**Mina QASIMOVA**

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı tədbir keçirilib

Kəngərli rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün icra nümayəndələrinə metodik kömək göstərilib. 2014-cü ildə və 2015-ci ilin I rübü ərzində keçirilən yoxlamalar zamanı Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin fəaliyyətində nöqsanlar aşkar edilib. Bu da onu göstərir ki, maarifləndirmə tədbirləri və yoxlamalara baxmayaraq, icra nümayəndəliklərinin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində işə soyuq münasibət qalmaqdadır.

Bu fikirlər Kəngərli rayonunda vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev tərəfindən səsləndirilib.

Ədliyyə naziri deyib ki, hüquqi maarifləndirmə tədbirləri olaraq 2009-2014-cü illər ərzində Kəngərli rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndələr üçün 16 dəfə seminar təşkil olunub, bütün nümayəndələr müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər.

Bildirilib ki, əvvəlki yoxlama ilə aşkara çıxarılmış nöqsanlar, onların təhlili və aradan qaldırılması üçün görülmüş tədbirlər, Qeydiyyat Şöbəsində, nümayəndəliklərdə vətəndaşların qəbulu işinin təşkili, vətəndaşların müraciətlərinə qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə baxılması, vətəndaşlıq vəziyyəti aktlarındakı qeydlərin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatına dair elektron məlumat bankında saxlanılan məlumatlarla tam uyğun olması da yoxlamalarda diqqət yetirilən əsas məsələlərdəndir. Rayonun inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri aparılan əməliyyatlara görə dövlət rüsumunun ödənilməsi və dövlət rüsumunun ödənilməsindən azadolmaların əsaslılığı, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında verilən şəhadətnamələrə görə haqqın ödənilməsi, şəhadətnamələrin doldurulması qaydası, kargüzarlıq işlərinin təşkili, arxiv sənədlərinin saxlanılması vəziyyəti və digər məsələlərə xüsusi diqqət yetirməlidirlər.

İştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsinin və müzakirələrin aparıldığı tədbirə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov yekun vurub.

**Xəbərlər şöbəsi**

İcmal

# Ötən ay muxtar respublikada keçirilən beynəlxalq səviyyəli tədbirlərlə, böyük uğurlarla yadda qalıb

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin işıqlı yoluna sədaqətli olan zəhmətkeş, fədakar insanların gərgin əməyi sayəsində 24 illik blokadaya baxmayaraq, bu gün Naxçıvan Muxtar Respublikası özünün intibah dövrünü yaşayır. Son 20 ildə muxtar respublikada bütün sahələrdə əldə olunan möhtəşəm nailiyyətlər ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasının vətənpərvər naxçıvanlılar tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.***



Naxçıvan Muxtar Respublikasında ümummilli liderin anadan olmasının 92-ci ildönümü təntənəli tədbirlərlə qeyd olundu. Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoydu, ulu öndərin xatirəsini dərin ehtiramla yad etdi.

Bu gün həyata keçirilən iqtisadi islahatlar nəticəsində qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitlik yaranıb, iqtisadiyyat dinamik inkişaf edib və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşıb.

20 il ərzində çox böyük zəhmətlə görülən genişmiqyaslı işlər, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası bu gün beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Burada beynəlxalq idman yarışlarının keçirilməsi muxtar respublikada həm də idman infrastrukturunun müasir dövrün tələbləri səviyyəsində qurulmasından və qədim diyarda idmanın çox sürətlə inkişaf etməsindən xəbər verir.

Ölkəmizdə keçiriləcək mötəbər beynəlxalq idman tədbiri – "Bakı-2015" Birinci Avropa Oyunları ərəfəsində, mayın 2-də muxtar respublikada ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ənənəvi "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi oldu. Festivalda dünya və Avropa çempionu olmuş şahmatçılar, beynəlxalq qrossmeysterlər, beynəlxalq şahmat və FİDE ustaları iştirak etdilər. Ölkəmizi festivalda 303 şahmatçı təmsil etdi ki, onlardan 80-i Naxçıvan Muxtar Respublikasından olan şahmatçılar idi. Bu isə muxtar respublikada şahmatın xüsusilə kütləviləşdiyini göstərirdi.

Bu da təsadüfi deyil. Çünki Naxçıvanda şahmatın inkişafına xüsusi diqqət göstərilir. Qeyd etmək yerinə düşər ki, bu gün Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində isə şahmat məktəbləri fəaliyyət göstərir. Şahmat tədris müəssisələrinin hər biri üçün müasir binalar tikilib istifadəyə verilib. Bunun ən bariz nümunəsi də elə "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının açılış mərasimindən bir gün əvvəl, yəni mayın 1-də muxtar respublikanın 11 il bundan əvvəl yaradılmış rayonunda – Kəngərlidə rayon Təhsil Şöbəsinin yeni inzibati binası ilə birlikdə Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbinin 4 mərtəbəli yeni binasının açılışının olması idi.

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına əhəmiyyət verilməsi heç də səbəbsiz deyil. "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə deyib: ***"Müdriklər gənc nəslin zehni inkişafında və formalaşmasında şahmatın imkanlarından faydalanmağın vacibliyin bildirmişlər. Bu, ondan irəli gəlir ki, şahmat bir tərəfdən gənclərin əqli inkişafına kömək edirsə, digər tərəfdən onların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Azərbaycan xalqı qədimdən bu zəka oyununa böyük maraq göstərmişdir. Lakin ölkəmizdə idman növü kimi şahmatın kütləvi inkişafı ötən əsrin 70-ci illərindən başlanmışdır. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə rayon mərkəzlərində və şəhərlərdə şahmat məktəbləri tikilib istifadəyə verilmiş, peşəkar şahmatçılar nəsli yetişdirilmiş və Azərbaycan şahmat məktəbinin əsası qoyulmuşdur. Dahi şəxsiyyət ölkəmizin müstəqillik dövründə də şahmatın inkişafına diqqət göstərmiş, onun himayə və qayğısı ilə bu sahədə möhkəm maddi-texniki baza yaradılmışdır".***

Bəli, muxtar respublikada bütün sahələrdə olduğu kimi, bu sahədə də ulu öndərin siyasi xətti uğurla davam etdirilir. Bu gün qədim diyarda 3 mindən artıq məktəbli peşəkar formada şahmatla məşğul olur. Bundan başqa, ümumtəhsil məktəblərində şahmat fənninin dərs proqramına daxil edilməsi gənclərin bu idman növünə marağını xeyli artırıb. Şahmatın inkişafına göstərilən qayğının nəticəsidir ki, bu gün muxtar respublika şahmatçıları arasında 2 beynəlxalq qrossmeyster, 2 beynəlxalq hakim və 2 FİDE ustası vardır.

Naxçıvan tarixən aqrar region kimi tanınıb. Qədim diyarın yeraltı və yerüstü sərvətlərindən, münbit torpaqlarından səmərəli istifadə olunması məqsədilə 1995-ci ildən burada böyük layihələr həyata keçirilir. Bu gün muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilir, ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramları dəqiqliklə icra olunur. Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan olunan 2015-ci ildə də bu sahənin inkişafı üçün kompleks tədbirlər həyata keçirilir.

Mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə keçirilən müşavirənin də əsas məqsədi kənd təsərrüfatı sahəsində daha böyük uğurlara nail olmaq üçün qarşıda duran vəzifələri bir daha müəyyənləşdirmək, bu istiqamətdə lazımi tədbirlərin həyata keçirilməsini təmin etməkdir. Bunun üçün geniş imkanlar, lazımi resurslar var. Muxtar respublikanın malik olduğu 550 min 275 hektar torpaq sahəsinin 164 min 269 hektarı və ya 30 faizə yaxını kənd təsərrüfatına yararlıdır. 2015-ci il 1 yanvar vəziyyətinə əkin sahələri 52 min 328 hektar təşkil edir ki, bunun da 40 min 959 hektarı və ya 78 faizi suvarılan torpaqlardır. Əkin sahələrinin 38 min 716 hektarı və ya 70 faizə yaxını xüsusi mülkiyyətdədir. Bu da torpaq mülkiyyətçilərinin qarşısında ciddi vəzifələrin dayandığını göstərir. Onların marağını artırmaq məqsədilə muxtar respublikada müxtəlif stimullaşdırıcı tədbirlər görülür. Yeni suvarma kanalları və nasos stansiyalarının istifadəyə verilməsi, əkin sahələrinin su ilə təminatının yaxşılaşdırılması torpaq mülkiyyətçilərinin əkin sahələrini genişləndirməsinə böyük imkanlar açır. Bu həm də muxtar respublika əhalinin rifah halının daha da yaxşılaşmasına hesablanmış əhəmiyyətli addımdır.

Müşavirədə muxtar respublikanın bank və kredit təşkilatlarına kənd təsərrüfatına ayrılan kreditlərin həcmini artırmaları, əkin üçün kreditlərin verilməsində operativliyin təmin edilməsi barədə tapşırıqlar verilib. Müşavirədə o da vurğulanıb ki, Kənd Təsərrüfatı Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə əkin üçün yararlı torpaq sahələrinin səmərəli istifadə edilməsinə diqqəti artırmalı, tərtib edilmiş əkin atlaslarına uyğun əkin aparılması üçün torpaq sahiblərini mütəmadi olaraq məlumatlandırmalı, əkilməyən torpaq sahələrini müəyyənləşdirib əkin dövriyyəsinə cəlb edilməsi üçün tədbirlər görməlidir.

İstifadəsiz qalmış torpaqların sahibləri ilə maarifləndirici söhbətlərin aparılması, pay torpaqlarının könüllü birləşdirilməsi əsasında birgə təsərrüfatların yaradılmasına dəstək göstərilməsi də bu sahənin inkişafına şərait yaradacaqdır. Qarşıya qoyulan vəzifələrdən biri də Kənd Təsərrüfatı Nazirliyinin "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə torpaq mülkiyyətçilərinin əkin materialları, keyfiyyətli və məhsuldar toxum sortları ilə təmin edilməsi üçün zəruri tədbirlər görməsi, təsərrüfatların kənd təsərrüfatı texnikası və mineral gübrələrlə təminatının yaxşılaşdırılmasına nail olmalarıdır. Əminliklə demək olar ki, bu məsələlərin həll olunması əkin sahələrinin genişləndirilməsində böyük rol oynayacaqdır.

Hər il muxtar respublikada 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan tarixi qələbənin ildönümü müxtəlif tədbirlərlə qeyd olunur.

Mayın 9-da qələbənin 70-ci ildönümü münasibətilə muxtar respublikada bayram tədbirləri keçirilib.

Bu gün Vətənimizin müdafiəsi yolunda sağlamlıqlarını itirən insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onların minik avtomobilləri ilə təmin olunması diqqət mərkəzindədir. Mayın 9-da – faşizm üzərində qələbənin 70-ci ildönümündə Naxçıvan şəhərində Azərbaycan Vətən Müharibəsi və Çernobıl əlillərinə, 1941-1945-ci illər müharibəsi veteranına və müharibə əlilinə bərabər tutulan şəxslərə 10 ədəd "NAZ-Lifan-320" markalı minik avtomobili təqdim edilib.

Sürətli sosial-iqtisadi yüksəlişi ilə regional cazibə məkanına çevrilən Naxçıvan Muxtar Respublikasına, demək olar ki, hər ay dünyanın nüfuzlu dövlətlərinin yüksək səviyyəli nümayəndələri səfər edir, muxtar respublikanın iqtisadi inkişafı, qədim tarixi, füsunkar təbiəti, burada yaradılmış möhtəşəm infrastruktur ilə tanış olurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mayın 13-də İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz, mayın 14-də isə Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində iştirak etmək üçün Naxçıvana gələn Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar ilə görüşüb.

Son dövrlər Azərbaycan Silahlı Qüvvələri və onun tərkib hissəsi olan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu istər hərbi təlimlərdə, istərsə də təcavüzkar düşmənin təxribatlarına qarşı ildırımsürətli cavab zərbələrində öz gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Mayın 15-də Naxçıvan Muxtar Respublikasında keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimləri də ordumuzun yüksək döyüş hazırlığına malik olduğunu bir daha sübut etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar birgə taktiki təlimi izləyiblər.

Həqiqətən də, əgər Əlahiddə Ümumqoşun Ordusu özünün yüksək döyüş qabiliyyəti, nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirdiyi hərbi təlimlərdə öz gücünü nümayiş etdirə bilirsə, bu, o deməkdir ki, blokada vəziyyətində yaşayan Naxçıvanın müdafiəsi çox yüksək səviyyədə təşkil olunub. Yəni bu gün Əlahiddə Ümumqoşun Ordusu qədim diyarın sürətli yüksəlişinin, intibahının qarantıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər və zabitləri, eləcə də tədbir iştirakçılarını Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik etdikdən sonra bu həqiqəti bir daha ifadə edərək deyib: ***"Bu təlimlər müstəqil ölkələrimizin iqtisadi və hərbi qüdrətinin göstəricisidir. 20-ci yüzilliyin əvvəlində böyük Mustafa Kamal Atatürk türk ordusunu yaratmaqla qardaş Türkiyəni xilas etdi. Həmin əsrin sonunda müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev də milli ordumuzu yaratmaqla Azərbaycanı parçalanmaqdan xilas etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı taleyüklü işlərin və vəzifələrin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Ordusu müstəqilliyimizin təminatçısıdır. Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikası ərazisindəki birləşmə və hissələri də böyük təşkilatlanma yolu keçmişlər. Naxçıvandakı motoatıcı briqada quruculuq tədbirləri nəticəsində peşəkar hərbi heyətə və güclü maddi-texniki bazaya malik Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinə gəlib çatmışdır".***

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, maddi-texniki təchizatı və şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yerləşən hərbi hissə üçün yeni binalar inşa edilib. Mayın 15-də qərargah binasının və əsgər yataqxanasının açılışı olub. Həmin gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna yeni xidməti avtomobillər və yük maşınları təqdim edilib.

Çiçəklənmə dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq işləri də geniş vüsət alıb. Demək olar ki, hər ay muxtar respublikada bir sıra sosial, inzibati binalar istifadəyə verilir, abadlıq, quruculuq işləri sürətlə davam etdirilir. Mayın 5-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzinin, mayın 14-də Naxçıvan şəhərinin "İstiqlal" küçəsində inşa olunan 95 nömrəli yeni ictimai yaşayış binasının və Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının Atıcılıq və əyləncə mərkəzinin, mayın 21-də Naxçıvan Dövlət Universiteti Xəstəxanasının və universitetin Baytarlıq təbabəti ixtisasının yeni binalarının, mayın 27-də isə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yeni inzibati binasının açılışı göstərir ki, muxtar respublikada tikinti-quruculuq işləri bu gün də böyük sürətlə davam etdirilir. Bu, muxtar respublikada görülən işlərin miqyasını ifadə etmək üçün çox tutarlı faktdır.

***Bu gün sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikası çağdaş intibah dövrünü yaşayır. Qurub-yaratmaq əzmi ilə Vətən sevgisinin misilsiz nümunəsini göstərən naxçıvanlılar, sözün həqiqi mənasında, xariqələr yaradırlar. Blokada şəraitində olan bir diyarın böyük sürətlə inkişaf etməsi isə bir çox ekspertlərin diqqətini cəlb edir. Çünki blokada şəraitində yaşayan bir məkanın bu dərəcədə sürətli iqtisadi yüksəlişə nail olması faktına dünyanın heç bir yerində rast gəlinməyib. Dünya tarixində də belə bir şey baş verməyib. Yəni Naxçıvan bugünkü sürətli sosial-iqtisadi inkişafı ilə həm də tarixdə bir ilkə imza atır. Şübhəsiz ki, bunu reallaşdıran insanların adları tarixə qızıl hərflərlə yazılacaqdır.***

Rauf ƏLİYEV

# AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin 60 illik yubileyi qeyd olunub

***İyunun 5-də AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin 60 yaşı tamam olmuşdur. Bu münasibətlə AMEA Naxçıvan Bölməsində yubiley tədbiri keçirilmişdir.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Vəli Baxşəliyevin keçdiyi ömür yolundan, onun Azərbaycan arxeologiyasının inkişafındakı xidmətlərindən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov tədbirdə çıxış edərək demişdir ki, Vəli Baxşəliyev 200-dən çox elmi əsərin, 30 monoqrafiyanın, 50-dən çox elmi-publisistik məqalənin müəllifidir. Alimin məhsuldar elmi fəaliyyəti yüksək qiymətləndirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Vəli Baxşəliyevi Ali Məclisin Fəxri Fərmanı ilə təltif etmişdir.

Əli Həsənov alimi 60 illik yubileyi münasibətilə Ali Məclisin Sədri adından təbrik etmiş və ona Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını təqdim etmişdir.



Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva Vəli Baxşəliyevin ömür yolu, elmi və pedaqoji fəaliyyəti barədə məruzə etmişdir.

Sonra AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, həmin institutun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Rafiq Babayev çıxış edərək Vəli Baxşəliyevin elmi fəaliyyətini yüksək qiymətləndirmiş və ona gələcək işlərində uğurlar arzulamışlar.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev ona göstərilən böyük qayğıya və elmi fəaliyyətinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını ifadə etmişdir.

**"Şərq qapısı"**

# Milli arxeologiyamıza böyük töhfələr verən alim



***O, arxeologiyada özünəməxsus "Vəli Baxşəliyev ritmi"ni yarada bilib. Bu "ritmə" neçə illərdən bəri onunla birlikdə axtarışlar aparan ABŞ-ın Corciya Universitetinin, Fransanın Lion Universitetinin əməkdaşlarının da "köklənməsi" Vəli müəllimin yaratdığı arxeoloji mühitin geniş coğrafiyasından soraq verir. Bütün bunlar heyranlıq da doğurub, heyrət də. Hər məsələyə yetərincə tələbkarlıq göstərənlər də onu elm mücahidi kimi qəbul ediblər.***

Milli arxeologiyamız Vəli müəllimin əli ilə bir çox elmi həqiqətlərə imza atıb. Onun tədqiqatları uzun illərin gərgin axtarışlarının, dərin elmi ümumiləşdirmələrin, örnək yeni təfəkkür tərzinin nəticəsi kimi arxeologiyada öz yerini alıb.

Onun fəaliyyət coğrafiyası həsəd doğuracaq qədər genişdir. 1995-1999-cu illərdə İstanbul Universitetinin əməkdaşları ilə Şərqi Anadolunun arxeoloji abidələrinin tədqiqində iştirakı milli bitkinlik, elmi yetkinlik sarıdan ciddi sınaq idi.

1981-ci ildə Tiflisdə keçirilən V arxeoloji qurultayda Zaqafqaziyada, Azərbaycan ərazisində ibtidai insanların yaşamadığı, qədim insan düşərgələrinin olmadığı barədə qərar çıxarılmış, 1953-cü ilədək çap olunmuş bir sıra əsərlərdə arxeoloqlar bunu təkrar-təkrar təsdiqləmişdilər. 100 il sonra Parisdə muzeydə təşkil olunmuş "Avropanın ilk sakinləri" sərgisində postsovet məkanında yalnız Azərbaycanın maddi-mədəniyyət nümunələrinin təmsil edilməsi milli yaddaşın süni, saxta "tarixi" yaddaş üzərində qələbəsi olmalı idi. Ancaq bəllidir ki, milli yaddaş müstəqillik illərində öz taxt-tacına qayıtdı.

İlkin yaşayış məskənlərindən, sivilizasiya mərkəzlərindən olan Naxçıvan arxeoloji, etnoqrafik və folklor mühitlərinin bütün əzəməti ilə dünyanın gözü qarşısında açılması da müstəqillik dövrünün misilsiz töhfələrindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq Simpoziumu elmimiz qarşısında geniş imkanlar açdı. Milli yaddaş çiçəkləndi. Arxeoloji mühitin sərhədlərini etnik həqiqətlər müəyyənləşdirdi.

II Kültəpə, Şahtaxtı, Maxta Kültəpəsi, Oğlanqala, Çalxanqala və yüzlərlə bu kimi abidələr tarixi, şanlı, canlı Naxçıvannamənin parlaq həqiqətlərinə çevrildilər. Naxçıvanda yetişən böyük bir arxeoloq heyəti milli arxeologiyamıza vətəndaş yanğısıyla töhfələr verdi. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev öz həmkarlarından Naxçıvanda yaşayaraq, ömrünün tən yarısını bu qədim diyarın arxeologiyasına həsr etməsi ilə fərqlənir.

Bu gün Vəli müəllimin 30-dan çox kitabı, 300 məqaləsi, altmış da yaşı var. Hər kitab və məqalənin arxasında duran uzun illərin arxeoloji qazıntılarını da hesablasaq, razılaşmalıyıq ki, bu altmış yaş az görünür.

1986-cı ildə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyaları müdafiə edən Vəli müəllim arxeologiya elminə öz üslubunu gətirib. Bu üslub üç sütun üzərində formalaşıb: arxeologiya, etnoqrafiya və folklor.

2002-ci ildə nəşr etdirdiyi "Gəmiqaya təsvirlərinin poetikası" kitabında alim yazır: "Abidənin tədqiqi arxeologiya, folklor, mifologiya, etnoqrafiya ilə bağlı elmi biliklərin birləşdirilməsini tələb edir. Bir tərəfdən bu elmləri birləşdirməyin çətinliyi, digər tərəfdən isə mifoloji araşdırmaların azlığı Gəmiqaya abidəsinin öyrənilməsinə mane olmuşdur.

Gəmiqaya rəsmləri insanların dünyabaxışının müəyyən kodlarla – antropomorf və zoomorf obrazlarla verilməsidir. Bu rəsmləri mifoloji qavram kimi qəbul etmədən, bu kodların quruluşunu və hansı informasiyanı verdiyini bilmədən onları araşdırmaq və "oxumaq" mümkün deyildir. Rəsmlərin dərk edilməsi ilə bağlı indiyə qədərki uğursuzluqların səbəbi də elə budur".

13 il bundan qabaq yazılmış bu kitabı oxuduqca alim şəxsiyyəti ilə vətəndaş məsuliyyətinin vahidliyinin şahidi olursan.

Arxeologiyanın elmi mənzərəsini yaratmaq Vəli Baxşəliyevin çoxşaxəli axtarışlarının bir hissəsidir. Onun "Azərbaycan arxeologiyası" I cild, "Naxçıvan arxeologiyası" kitabları tələbələr üçün də, mütəxəssislər üçün də çox qiymətli bir mənbədir. Müəllif arxeoloji mühiti çox zəngin, misilsiz milli hadisə kimi dəyərləndirmiş, geniş seçim imkanlarından məharətlə istifadə edə bilmişdir.

Həmmüəllifi olduğu "Qədim Ordubad", "Qədim Şərur" Vəli müəllim üçün təkcə kitab adları deyil, şöhrəti tariximizi özündə yaşadan, milli dəyərlərimizi yüksək dərəcədə hifz edən müqəddəs ünvanlardır.

Onu tanıyanların hər biri şahiddir: AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri Vəli Baxşəliyevin tədqiqatları həmişə arxeoloji fikrin diqqət mərkəzində olub. Çünki onun hər bir tədqiqatı məzmunca da, strukturca da orijinal və maraqlıdır. Bütün bunlar isə onun problemə yeni baxış sistemi ilə bağlıdır. Müəllif düşüncəsi və yanaşmasının elmi-nəzəri özünəməxsusluğu onun tədqiqatlarını səciyyələndirir.

Misilsiz dövlət qayğısı Naxçıvanda arxeologiya elminin də yüksək nailiyyətlərinə hərtərəfli imkanlar açıbdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi və qayğısı ilə 2013-cü ildən Naxçıvanın yerli arxeoloji ekspedisiyasının təşkili bu sahədə yeni mərhələ yaradıb. I Kültəpə, Yeniyol, Ərəbyengicə abidələrində son vaxtlar aparılan arxeoloji qazıntılar bölgənin qədim tarixinə dair mühüm faktların ortaya çıxarılmasına səbəb olub.

I Kültəpə abidəsindən götürülmüş radiokarbon analizlərin Naxçıvanda Neolit mədəniyyətinin mövcud olmasını təsdiq etməsi çox mühüm elmi hadisədir.

*Vəli Baxşəliyevin 60 yaşı oldu. Bu altmış yaş, onu tanıyanlar üçün, elm mücahidliyi yolçuluğunun yaşıdır.*

**Rafiq BABAYEV**
***filologiya üzrə fəlsəfə doktoru***

**Naxçıvanın Şərqə qapısı sayılan Culfada, tarixin pak yaddaşı olan Əlincəçayın sahilində sıldırım, yalçın qayaların zirvəsində qartalların yuva saldığı əzəmətli bir qala var. Xalqımızın azadlıq uğrunda mübarizəsinin, işğalçılara qarşı qanlı döyüşlərin şahidi olan, tarixin keşməkeşlərinə mətinliklə sinə gərən bu qala min illərdir, tarix ümmanında yol alanlara mayak olur. Bu qala Azərbaycan tarixinin ən səs-küylü, ən həlledici dönəmlərinin yadigarı olan Əlincədir.**

# Əlincə qalası mübariz xalqın daş yaddaşıdır



### *Bir qalanın tarixçəsi...*

Əlincəqalanın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı, təqribən, 2 min il bundan əvvələ aid edirlər. Qalanın xatırlandığı ən qədim mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Əlincəqala haqqında tarixçilərdən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumat veriblər.

Azərbaycan Atabəyləri – Eldəgizlərin hökmranlığı dövründə Əlincəqala mühüm hərbi istehkam olaraq hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilir. Əlincəqala XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin II yarısında Cəlairilərin idarəçiliyinə keçir. Zamanının məğlubedilməz hökmdarı Əmir Teymur bu qala uğrunda uzun zaman mübarizə aparır. Onun qoşunları 1386-cı ilin payızında Naxçıvana basqın edir. Əlincə qalasına dəfələrlə hücumlar olsa da, qalanı fəth edə bilmirlər. 14 illik qəhrəmancasına mübarizədən sonra 1401-ci ildə Əlincə qalası Teymur qoşunları tərəfindən tutulur.

### *Əlincəyə yeni həyat verilir*

Ərazi baxımından Azərbaycandan ayrı düşmüş Naxçıvanda keçmişin şahidi olan abidələrimizə xüsusi diqqət göstərilir. Bu həm də ümummilli liderimizin tarixi keçmişimizin yaşadılması sahəsində gördüyü işlərin davamıdır.

Tarixi keçmişimizə göstərilən hörmət və ehtiramın nəticəsidir ki, Naxçıvan ərazisində mövcud olan bütün tarixi abidələr qorunur və mühafizə altına alınır. Bu gün göstərilən diqqət və qayğı sayəsində tarixi abidələrimizə yeni həyat verilir, daş yaddaşımız əvvəlki vəziyyətinə, görünüşünə qaytarılmaqla təzələnir. Qaytarılan təkcə görüntü deyil. Qaytarılan daş yaddaşımız, ulu keçmişimiz, milli-mənəvi dəyərlərimizdir. Bununla bərabər, xalqa milli-mənəvi dəyərlərimizin ölməzliyi də təlqin olunur, tariximizin qaranlıq qalan hər bir səhifəsi yenidən vərəqlənir, oxunur. Əlincəqalaya da bu gün ikinci həyat verilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanıb, Azərbaycan tarixinin açılmamış səhifələrinə işıq salınıb. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilib. Ötən il fevral ayının 11-də isə muxtar respublika rəhbəri tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanıb. Bu sərəncamdan sonra Əlincəqalanın bərpasına başlanılıb. Ötən müddət ərzində qalaya qalxmaq üçün sıldırım qayalar arasında zirvəyə gedən cığırda daş pilləkənlər salınıb, pilləkənlərin sağ və sol tərəflərində yağış və sel sularından qorunmaq üçün arxlar qurulub. Qalanın qapıları, bürcləri əhatələyən divarlarına yeni həyat verilib. Qala ərazisindəki daş hovuzlar təmizlənib, hovuzları su ilə təmin edən, yalçın qayalarda kustar üsulla yaradılmış arxlar əvvəlki vəziyyətinə qaytarılıb. Qalanın "Şahtaxtı" deyilən hissəsinə gedən yolda qayalar kəsilərək pillələr yaradılıb. Qeyd edək ki, burada istifadə olunan materiallar bişmiş kərpic və sal daşlardır. Bu cür tikinti materialları min il bundan əvvəl olduğu kimi, indi də etibarlı sayılır.

### *Məqsəd özümüzü özümüzə qaytarmaq, keçmişimizi yaşatmaqdır*

Qüdrət rəmzi qalalarımız heç zaman qəddini yadlara əyməyiblər. Qalalarımız təkcə tariximizin şahidi olmayıb, eyni zamanda onu yaradan xalqın istedad və zəkasının məhsulu, mədəni səviyyəsinin meyarı olub. Əlincə qalasının divarları və bürclərinin qalıqları da sübut edir ki, bu tikili müdafiə məqsədi daşısa da, gücün, qüdrətin, zəkanın, mədəniyyətin nümayişidir. İndi bu qalanın bərpa olunmasında müdafiə məqsədi güdülmür. Məqsəd min illər öncəsindən çox fərqlidir. Düşmən yüz kilometrlərlə uzaqlıqdadır və bir addım belə önə gəlməsi mümkün deyil; igid oğullarımız sərhədlərimizin hər daşını, qayasını alınmaz səngərə, sipərə çeviriblər. Hələ bərpa işləri tamamlanmasa da, əzəməti, möhtəşəmliyi ilə görənləri heyrətə gətirən, bizi qürurlandıran bu qalanın yenidən daha da əzmkarlıqla ucaldılmasının məqsədi var. Bu məqsəd özümüzü özümüzə qaytarmaq, keçmişimizi yaşatmaqdır. Yəqin ki, gələcək illərdə üstü tozlanmış tarix səhifələrinin də tozu silinəcək, tariximizin açılmayan, hələ sirli qalan qatları öyrəniləcək, belə izlər bu torpaqda daha aydın görünəcək, yeni-yeni izlər salınacaq. Çünki tarixin şahidi olan bu qalalar, abidələr əyilməz bir xalqın, bir ulusun yadigarları, el-oba əmanətidir, həm də əvəzi olmayan, müqayisəyə gəlməyən əmanəti. Digər qalalarımız kimi, Əlincəqala da açılmayan sirdir, tarixin gizli həqiqətidir. Bu divarlar arxasında igidlərimiz coşub sinələrini düşmənə sipər ediblər. Mərd ərənlər şahin olub düşmənin başına şığıyıblar, od ələyiblər. Bu abidəmiz yaddaşlara yaddaş olub, əsrləri yola salıb. İnamla və hünərlə dayanıb. Bu qalanı gördükcə qürurumuz artır, babalarımızın hünərinə baş əyirik.

*Deyirlər, dağ zirvəsi, insan kamalı, pələng pəncəsi, qartal qanadı ilə tanınar, qədim yurd isə tarixi abidələri ilə. Bu mənada yaxşı haldır ki, bu gün tarixi abidələrimizi yaşada-yaşada onları bütün dünyada tanıda bilirik. Abidələrimiz tanınırsa, deməli, qədim diyarımız da tanınır.*

**Səbuhi HÜSEYNOV**

## Ailə qurmaq istəyən şəxslər məcburi tibbi müayinədən keçəcəklər

***İyunun 1-dən etibarən ölkəmizdə ailə qurmaq istəyən şəxslərin məcburi tibbi müayinəsi həyata keçiriləcək. Bu addım sağlam ailənin formalaşması, uşaqların irsi xəstəliklər və anadangəlmə inkişaf qüsuru ilə doğulmasının qarşısının alınması baxımından zəruridir.***

“Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” Qanunun tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollegiya iclasında konkret vəzifələr müəyyənləşdirilib. “Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməli olduğu xəstəliklərin siyahısı”, “Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın forması”, “Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası”nın icrasını təmin etmək üçün müvafiq qərar qəbul olunub. Həmin qərara əsasən, nikaha daxil olmaq istəyən şəxslərə tibbi arayışların verilməsi ərazi bölgüsünə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi və rayon mərkəzi xəstəxanaları tərəfindən qeyd olunan müayinələrin nəticələri təqdim edildikdən sonra həyata keçiriləcəkdir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi Naxçıvan Muxtar Respublikası Dəri-Zöhrəvi Dispanserində, QİÇS-lə Mübarizə Mərkəzində, Naxçıvan Muxtar Respublika Xəstəxanasının Hematologiya şöbəsində aparılacaqdır. Tibbi arayışların verilməsi adları qeyd olunan səhiyyə müəssisələrində məsul şəxslərə həvalə edilib.

Nikaha daxil olmaq istəyən şəxslər hemoqlobinopatiyalar, böyük və aralıq beta-talassemiya, oraqvarı hüceyrəli anemiya, QİÇS və sifilis xəstəliklərinə görə tibbi müayinədən keçməlidirlər.

Cütlüyə onların razılıqlarına əsasən həkim məsləhəti veriləcək, lazım gələrsə, onlar tibbi-genetik, tibbi-psixoloji və ailə planlaşdırılması üzrə konsultasiya olunacaqlar. Tibbi müayinə nikaha daxil olmaq istəyən şəxslərin və ya onların birinin yaşayış yeri üzrə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət tibb müəssisəsində pulsuz həyata keçiriləcəkdir. Onlara müayinələrin yazılı formada cavabları ilə yanaşı, tələb olunan quruma təqdim etmək üçün tibbi müayinədən keçdiklərini təsdiq edən, tibb müəssisəsinin rəhbəri və tibbi müayinənin aparılmasına məsul həkim tərəfindən imzalanan arayış təqdim ediləcək. Ancaq arayışda müayinənin nəticələri göstərilməyəcək – bu, həkim sirri kimi qalacaq. Nikaha daxil olanlarla bağlı məlumatların düzgünlüyünə və konfidensiallığına görə müvafiq səhiyyə ocağı və arayış verən həkim məsuliyyət daşıyır. Arayış nikaha daxil olmaq istəyən şəxslərin tibb müəssisəsinə müraciət etdiyi gündən sonrakı iki həftə ərzində veriləcək və onun etibarlılıq müddəti bir aydır. Bununla bağlı müvafiq şəxslərə lazımi göstərişlər verilib. Artıq müayinələr üçün laboratoriya otaqlarının, kabinetlərin, lazımi avadanlıqların ayrılması məqsədilə zəruri işlər görülüb.

Yeni qaydalar nikaha daxil olmaq istəyən, muxtar respublikamızda daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə də şamil ediləcək.

Qeyd edilməlidir ki, bu qaydanın tətbiqi talassemiya kimi son zamanlar tez-tez müşahidə olunan xəstəliklərlə bağlıdır. Bununla əlaqədar artıq xeyli işlər görülsə də, hadisələrin gedişi bu xəstəliyin tükənmədiyini göstərir. Bu, insanların öz genetik göstəricilərini bilmədən nikaha daxil olmalarından irəli gəlir. Bir çoxları yalnız ailə qurandan sonra öyrənir ki, tərəflərdən hansındasa ciddi xəstəlik var. Yeni qaydalar bu problemi tamamilə aradan qaldıracaq.

Vurğulanmalıdır ki, Ailə Məcəlləsinə edilən dəyişiklik belə insanların nikahını qadağan etmir. Yalnız anlaqsız (ruhi xəstə) insanlar istisna olmaqla, digər xəstələrin nikahına icazə verilir. Ancaq müayinə zamanı sağlamlıqla bağlı hansısa problemlər qeydə alınarsa, gənclərə doğulacaq uşaqlarının hansı xəstəlik daşıyıcısı ola biləcəyi izah edilir, hansı yöndə müalicə almaları tövsiyə olunur.

Nikaha daxil olmaq istəyənlərdən arayış bir ay əvvəl Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı Şöbəsinə müraciət edən zaman tələb olunacaq. Arayış təqdim edilmədiyi təqdirdə nikah qeydə alınmayacaq.

Yeni qaydalar Azərbaycan genofondunun qorunmasında, gənclərin dünyaya daha sağlam körpə gətirməsində mühüm rol oynayacaq, sağlam ailə mühitinin formalaşmasına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Fərdi qəza sığortası hər kəs üçün faydalıdır

***İnsanların qəza halında məruz qaldığı itkilərin maddi dəyərinin əvəz olunmasında fərdi qəza sığortasının əhəmiyyəti böyükdür. Buna görə də ölkəmizdə vətəndaşların həyat və sağlamlığını təbii və texnogen hadisələrdən sığortalamaq yolu ilə sosial müdafiəsinin təşkili sığortanın əsas vəzifələrindən biri hesab olunur.***

Fərdi qəza sığortası öz formasına görə könüllü sığortadır. Bu, tərəflərin qarşılıqlı razılaşması yolu ilə müəyyən olunmuş qaydalar əsasında aparılır. Tətbiqi icbari olan digər sığorta növləri ilə müqayisədə isə bu sığorta növünün bir sıra üstünlükləri vardır. Belə ki, istehsalatda bədbəxt hadisələrdən icbari sığorta yolu ilə sığortalanan şəxslərə yalnız iş vaxtı baş verə biləcək hadisələrdən təminat verilirsə, fərdi qəza sığortası olan insana onun harada olmasından və günün hansı saatından asılı olmayaraq, baş vermiş gözlənilməz, bədbəxt hadisələrdən təminat verilir. Gündəlik həyatımızda belə hadisələr baş verir və bu hadisələrin bəziləri insanların həyat və sağlamlığına zərər vurmaqla ciddi maddi itkilər törədə bilir. Belə hallarla rastlaşdıqda daha etibarlı gələcək üçün sığorta agentliyi tərəfindən həyata keçirilən fərdi qəza sığortasının hər kəs üçün əhəmiyyətli olduğunu deyə bilərik.

Cəmiyyət getdikcə müasirləşsə də, insan sağlamlığının və əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən qəfil, gözlənilməz bədbəxt hadisələrə həmişə, hər yerdə rast gəlinmə ehtimalı qalmaqdadır. Fərdi qəza sığorta hadisəsi hesab olunan belə hadisələr zamanı sığorta olunduqda sığortaçı tərəfindən ona ödənilən ödənişlər dəymiş zərərin aradan qaldırılması üçün istifadə oluna bilər. İnsana fiziki, kimyəvi, texniki xarakterli təsadüfi hadisələrdən dəymiş zərərlərin əvəzini məhz bu yolla ödəmək mümkündür. Belə ki, insanın cansağlığının və əmək qabiliyyətinin itirilməsi ilə müşayiət olunan qəfil yanğın, partlayış, donma, suda boğulma, elektrik cərəyanı, ildırım, günvurma, vəhşi heyvanların hücumu, tənəffüs yollarına yad əşyanın düşməsi, zəhərli bitkilərdən kəskin zəhərlənmə, eləcə də maşın, mexanizm və alətlərdən istifadə zamanı ona dəymiş zərərə görə sığortalı vətəndaşın özü və ya ailəsi sığorta müqaviləsində göstərilmiş məbləğdə sığorta ödənişi ilə təmin olunur.

Qeyd etdiyimiz kimi, fərdi qəza sığortası tərəflər arasında razılaşdırılmış sığorta müqaviləsi bağlanılmaqla həyata keçirilir. Bu müqaviləyə əsasən, sığortalı şəxsin ödədiyi razılaşdırılmış sığortahaqqı müqabilində sığorta hadisəsi baş verdiyi zaman həmin müqavilədə göstərilən sığorta məbləğinin sığortaçı tərəfindən faydalanan şəxsə, yəni sığortaolunana və ya sığortaolunan bədbəxt hadisə nəticəsində vəfat etdiyi hallarda isə övladlarına verilməsi nəzərdə tutulur.

Fərdi qəza sığorta növü üzrə müqavilə bağlanarkən sığortalı şəxsin ödədiyi sığortahaqqı razılaşdırılmış sığorta məbləğinə və sığortaolunanın peşəsi və məşğuliyyəti nəzərə alınmaqla müəyyənləşdirilən tarif dərəcəsinin sığorta məbləğinə nisbətdə hesablanmış pul məbləğidir. Başqa sözlə, fərdi qəza sığortası üzrə tarif dərəcəsi risklərin səviyyəsindən asılı olaraq, 0,5 faizdən 2 faizədək məbləğdə müəyyənləşdirilir. Məsələn, aşağı risk dərəcəsində min manat dəyərində sığorta məbləği üçün 0,5 faiz tarif dərəcəsi ilə 5 manat sığortahaqqı ödəməklə müqavilə bağlamaq mümkündür. Beş min manatlıq sığorta məbləği üçün isə müqavilə bağlandıqda 0,5 faiz tarif dərəcəsi ilə 25 manat sığortahaqqı ödənilməlidir. Nisbətən yüksək risk səviyyəsi mövcud olduqda isə min manatlıq sığorta məbləği üçün 1 faiz tarif dərəcəsi ilə 10 manat sığortahaqqı, beş min manatlıq sığorta məbləği üçün isə 50 manat sığortahaqqı ödənilməklə müqavilə bağlanılır.

Müasir cəmiyyətimizə xas olan fəal həyat tərzi və işgüzarlıq insanların texnikadan və nəqliyyat vasitələrindən daha çox istifadə etməsinə, bu da, öz növbəsində, gözlənilməz qəfil qəza hadisələrinin də rastgəlmə ehtimalının artmasına səbəb olur. Belə gözlənilməz bədbəxt hadisələrdən vaxtında sığortalanmaq isə insanların çıxılmaz vəziyyətdən, maddi zərərlərdən xilas olunmasına çox kömək edir.

**✍ Əli CABBAROV**

## Gənclərin ətraf mühitin mühafizəsindəki rolu artırılır

*5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar Şərur, Kəngərli və Sədərək rayonlarının parklarında “Ətraf mühitin mühafizəsi hər birimizin vəzifəsidir” mövzusunda tədbir keçirilmişdir.*

Tədbiri Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi təşkil etmişdir. Şərur, Kəngərli və Sədərək rayonlarının hər birindən 50-dən çox gəncin iştirakı ilə keçirilən tədbirdə iştirakçılara ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması ilə bağlı məlumatlar verilmiş, gənclərin bu sahədə rolundan söhbət açılmışdır.

**✍ Ceyhun MƏMMƏDOV**

## Ekoloji monitorinqlər keçirilib

Ətraf mühitin mühafizəsi, normadan artıq çirklənməsinə səbəb olan halların qarşısının alınması, bu sahədə idarəetmə sisteminin səmərəli fəaliyyətinin təmin edilməsinə nəzarəti gücləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Naxçıvan şəhəri ərazisində 2015-ci ilin 25 may-5 iyun tarixlərində ekoloji monitorinqlər keçirilib.

Monitorinqlərdə iaşə məntəqələrində, o cümlədən şadlıq saraylarında və istirahət mərkəzlərində istifadə olunan içməli suların ekoloji təmizliyi, kanalizasiya sistemlərinin fəaliyyəti, tullantıların toplanması və zərərsizləşdirilməsi qaydalarına əməl edilməsi və digər fəaliyyətlərə ekoloji nəzarətin səviyyəsi yoxlanılıb. Monitorinq zamanı, eyni zamanda şəhər ərazisində məişət tullantılarının toplanması üçün yerləşdirilmiş təmizlik qutularına baxış keçirilib və müəyyən edilib ki, havaların istiləşməsi, temperaturun artması ilə əlaqədar olaraq infeksion xəstəliklərin yaranması, ətraf mühitin iy, qoxu ilə çirklənməsinin qarşısının alınması məqsədilə tullantıların yığışdırılması soyuq havalara nisbətən daha tez-tez həyata keçirilməlidir.

Əhalinin istifadə etdiyi içməli suların ekoloji-sanitar təmizliyinin yoxlanması məqsədilə müəyyən edilmiş mənbələrdən su nümunələri götürülüb, fiziki və kimyəvi xassələrini öyrənmək məqsədilə analiz və təhlillər aparılıb. Əldə edilmiş nəticələr içməli suların ekoloji təmiz və içməli su kimi istifadəyə tam yararlı olduğunu müəyyən edib.

Məişət və istehsalat tullantılarının toplandığı ərazilərdə, poliqonlarda tullantıların çeşidlənərək zərərsizləşdirilməsi, basdırılması, poliqon ərazisinin çəpərlənməsi sahəsində mövcud çatışmazlıqlar müəyyən edilib və aradan qaldırılması üçün aidiyyəti idarə və müəssisələrə tövsiyə-xəbərdarlıqlar olunub.

Aparılan ekoloji monitorinqlər zamanı ətraf mühiti normadan artıq çirkləndirən subyektlər aşkar edilməyib və Naxçıvan şəhəri ərazisindəki mövcud ekoloji durum əlverişli qiymətləndirilib.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların vəzifələri nədən ibarətdir?***

**Cavab:** Ətraf mühit insan fəaliyyətindən asılı olmayaraq, onu əhatə edən canlı və cansız təbiətin məcmusudur. Ətraf mühitin mühafizəsi isə ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrə yol verilməməsi, qorunub saxlanmasıdır. Ətraf mühiti qorumaq hər bir kəsin vəzifəsidir.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən vəzifəli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində ətraf mühitə, insanların sağlamlığına, təşkilatların, vətəndaşların və dövlətin mülkiyyətinə (əmlakına) zərər vurmuş hüquqi və fiziki şəxslər vurulmuş zərəri qüvvədə olan qanunvericiliyə uyğun ödəməlidirlər. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş məzənnələr və metodlarla hesablanma qaydalarına uyğun könüllü və ya məhkəmənin qərarı əsasında, bu hallar olmadıqda isə itkilər nəzərə alınmaqla ətraf mühitin pozulmuş vəziyyətinin bərpasına lazım olan faktiki xərclər həcmində həyata keçirilir. Zərərin ödənilməsinə görə alınan məbləğlər ətraf mühitin mühafizəsi fondlarına, qanunvericiliklə müəyyən edilmiş hallarda isə zərər çəkmiş hüquqi və ya fiziki şəxsin hesabına köçürülür. Ətraf mühitə təhlükəli təsir edən fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər onların təqsiri müəyyən edildikdə ətraf mühitə vurulmuş zərəri ödəməlidirlər.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vətəndaşların həyatına və əmlakına vurulmuş zərər, zərərçəkənin əmək qabiliyyətinin itirilməsi dərəcəsi, onun müalicəsi və sağlamlığının bərpası üçün tələb olunan xərclər və itkilər nəzərə alınmaqla tam həcmdə ödənilməlidir. Vətəndaşların sağlamlığına və əmlakına vurulmuş zərərin həcminin müəyyən edilməsi qüvvədə olan qanunvericiliyə uyğun, zərərin ödənilməsi isə məhkəmənin qərarı əsasında həyata keçirilir. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada ödənilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***İtmişdir***

Babək rayonunun Vayxır kəndində yaşamış Bağırov Cilovxan Həsənəli oğlunun adına olan JN-322 B inventar nömrəli, 10313018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 441